**UOT94(479.24).**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ PARLAMENTİNDƏ (MƏCLİSİ-MƏBUSAN) LƏNKƏRAN QƏZASINI TƏMSİL EDƏN HACI MİRZƏ SƏLİM AXUNDZADƏNİN FƏALİYYƏTİ

**Nurlanə MƏLİKLİ***

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, parlament, Lənkəran qəzası, Hacı Mirzə Səlim Axundzadə*

Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları - Azərbaycan xalqının ən öndə gedən ziyalıları və maarifçiləri xalqın ümumi tərəqqisinin təmin olunmasında, demokratik cəmiyyətin formalaşdırılması və müstəqil dövlətin sosial-siyasi əsaslarının möhkəmləndirilməsində mühüm işlər görmüşlər. Bu istiqamətdə fəaliyyət göstərənlərdən biri də Zaqafqaziya Seyminin müsəlman fraksiyasının üzvü, AXC-nin müstəqilliyini elan edən İstiqlal bəyannaməsini imzalayanlardan biri, AXC parlamentinin Lənkəran qəzasının nümayəndəsi Hacı Mirzə Səlim Axundazadədir. Məqalədə Hacı Mirzə Səlim Axundzadənin həyatı, AXC parlamentindəki və parlamentdən qabaq fəaliyyəti tədqiq olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti I dünya müharibəsinin gedişi, Rusiya Çar Monarxiyasının devrilməsi, İmperiyaya daxil olan qeyri-rus xalqların öz müqəddəratını həll etmək üçün yaranan əlverişli imkanlar daxilində, Azərbaycanın ictimai-siyasi xadimlərinin bu yolda uzun onilliklərməqsədyönlü və gərgin səyi və fəaliyyəti nəticəsində qurulmuşdur. Dövrün şərtlərinə görə Azərbaycan xadimlərinə bir müddət bölgənin digər xalqlarının nümayəndələri ilə birlikdə təşkil edilmiş Zaqafqaziya Seymi daxilində qanunvericilik fəaliyyəti ilə məşğul olmuşdur. 1918-ci ilin mayın sonunda isə müvafiq tarixi şəraitdə isə müstəqil Azərbaycan dövlətinin - Xalq Cümhuriyyətinin yaradıldığı elan edilmişdir. Bu tarixi hadisəni əks etdirən İstiqlal bəyannaməsindəAzərbaycan Xalq Cümhuriyyətinin ərazisi haqqında məlumat verilir və göstərilirdi ki, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan tamhüquqlu müstəqil dövlətdir. Bundan başqa, 1918 ilin noyabrında Əlimərdan bəy Topçubaşovun Antanta dövlətlərinin İstanbuldakı nümayəndələrinə göndərdiyi xüsusi memorandumda Azərbaycanın ərazisi müəyyənləşdirilirdi. Bu məsələ daha geniş şəkildə Paris sülh konfransındakı Azərbaycan sülh nümayəndəliyinin tələblərində də əks olunmuşdu. Həmin sənədə əsasən, Azərbaycan Xalq Cümhuriyyətinin regional bölgüsü aşağıdakı əraziləri əhatə edirdi: ***Bakı quberniyası*** (Bakı dairəsi ilə birlikdə Bakı qəzası, Cavad qəzası, Göyçay qəzası, Şamaxı qəzası, Quba qəzası, Lənkəran qəzası); ***Yelizavetpol*** (Gəncə) ***quberniyası*** (Yelizavetpol, yəni Gəncə qəzası, Cavanşir qəzası, Nuxa qəzası, Ərəş qəzası, Şuşa qəzası, Qaryagin, yəni Cəbrayıl qəzası, Zəngəzur qəzası, Qazax qəzası (bu ərazinin üçdə birini təşkil edən dağlıq hissəsi Azərbaycan və Ermənistan arasında mübahisəli ərazi kimi qalırdı)); *İrəvan quberniyası* (Naxçıvan qəzası, Şərur-Dərələyəz qəzası, Sürməli qəzası, habelə Yeni Bəyazid qəzası, Eçmiədzin və Aleksandropol qəzalarının bir hissəsi); ***Tiflis quberniyası*** (Borçalı qəzası, Tiflis və Sığnax qəzalarının bir hissəsi); ***Zaqatala mahalı; Dağıstan vilayəti*** (Kürə və Samur nahiyələrini əhatə edən ərazinin bir hissəsi, habelə Dərbənd şəhəri və onun ətrafı da daxil olmaqla, Qaytaq-Tabasaran qəzasının bir hissəsi) [2, s.11]

*Lənkəran Dövlət Universitetinin dissertantı və müəllimi
e-mail: nurlanamalikli@yahoo.com

Lakin İstiqlal bəyannaməsi Azərbaycan xalqı üçün çox ağır bir şəraitdə, Bakı şəhəri daxil olmaqla ölkə ərazisinin böyük hissəsinin bolşevik-erməni qüvvələrinin işğalı altında olduğu,azərbaycanlıların qaçqın və köçkün halında digər yaşayış məntəqələrinə qaçdığı bir zamanda qəbul edilmişdir. Bütün bu səbəblərdən Azərbaycan Parlamenti yaradılana qədər yeni dövlətin qanunvericilik fəaliyyəti 1918-ci il 27 may tarixində yaradılan Müvəqqəti Milli Şura tərəfindən həyata keçirilmişdir. Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə seçilmişdir. 1918-ci ilin 17-18 iyun tarixlərində Tiflisdən Gəncəyə gələn Milli Şura və Azərbaycan hökuməti üzvləriburada meydana çıxan siyasi böhran nəticəsində bir sıra güzəştlərə getməyə məcbur olmuşdur. Milli Şura Azərbaycan torpaqları və paytaxt Bakı işğaldan azad olana və Müəssislər Məclisi çağırılana qədər öz səlahiyyətlərinimüvəqqəti olaraq Azərbaycan Hökumətinin yenidən təşkil olunan Kabinetinə vermişdir.

1918-ci ilin 15 sentyabrı üçünAzərbaycan torpaqları Qafqaz İslam Ordusu tərəfindən işğaldan azad edildi və Azərbaycan hökuməti paytaxt Bakıya qayıtdı. Lakin az sonra Mudros sazişinə görə türk qoşunları Azərbaycandan çıxarılır, İngilis qoşunları general Tomsonun rəhbərliyi altında Bakıya daxil olur və şəhərdə fövqəladə vəziyyət elan edilir. Yaranmış ağır və mürəkkəb şəraitdə 1918-ci il noyabrın 16-da Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə Gəncə böhranı buraxılmış Azərbaycan Milli Şurası öz fəaliyyətini bərpa edir və ölkənin müqəddəratını yenidən öz əlinə aldığını bildirir. [Ətraflı bax: 8. s.269-303]

Özünün növbəti, 1918-ci ilin noyabr ayının 20-də keçirilən iclasında Milli Şura yaranmış şəraitdə normal seçkilər keçirməyin qeyri-mümkünlüyünü nəzərə alaraq Müəssislər Məclisinə seçkilərə qədərki dövr üçün qanunvericilik fəaliyyətini həyata keçirmək məqsədilə “Azərbaycan Məclisi-Məbusanının Təsisi” haqqında qanun qəbul edir [1, s.14-15; 8, s.82]. Bu qanun 1918-ci ilin dekabr ayının 7-dən 1920-ci il aprel ayının 27-dək olan müddət ərzində Azərbaycan Cümhuriyyətində qanunverici hakimiyyəti həyata keçirəcək orqanın formalaşmasının əsaslarını özündə əks etdirirdi. Həmin qanunda Azərbaycan parlamentinin (Məclisi-Məbusanının) 120 üzvdən (əzadan) ibarət tərkibdə təsis ediləcəyi və onun Azərbaycan Müəssislər Məclisi çağırılanadək fəaliyyət göstərəcəyi qeyd edilirdi. Məclisi-Məbusanın say tərkibinin müəyyən edilməsi zamanı əvvəllər Cənubi Qafqazın müsəlman əhalisi tərəfindən dörd müxtəlif siyasi firqə tərəfindən Rusiya Müəssislər Məclisinə seçilmiş 14 nəfər saxlanılmaqla genişləndirilmiş siyahı üzrə sayı 44 nəfərədək artırılmış və Cənubi Qafqaz Seymində təmsil olunaraq Azərbaycan Milli Şurasını təşkil etmiş üzvlərindən, eləcə də Azərbaycanın əyalətlərində əvvəldən fəaliyyət göstərən müsəlman komitələri tərəfindən, azlıq təşkil edən millətlərin öz aralarından və nəhayət, Bakı Həmkarlar Şurası ilə ticarət, sənaye sovetləri ittifaqından seçilmiş təmsilçilərdən ibarət heyətdə formalaşdırılması nəzərdə tutulmuşdu [1, s.14-15; 2, s.36; 5; 8, s. 82]. Həmin qanuna əsasən, əvvəlcədən müəyyənləşdirilmiş 44 nəfərdən əlavə daha 76 nəfər parlament üzvünün müəyyənləşdirilməsi lazım idi ki, bu zaman ölkənin demoqrafik vəziyyəti, əhalinin milli və dini mənsubiyyəti məsələləri əsas götürülərək, hər 24.000 nəfər əhali üçün təmsilçi olaraq bir məbusun (parlament üzvünün) seçilməsi nəzərdə tutulurdu. Həmin dövrdə “Qafqaz təqviminə” (“Кавказский календарь”- 1845-ci ildən 1916-cı ilədək olan dövr ərzində Rusiya İmperiyasında çap edilən Qafqaz haqqında illik məlumat-sorğu nəşri) əsasən, Azərbaycan Xalq Cümhuriyyətinin ərazisində 2.750.000 nəfər əhali yaşayırdı və elə həmin qaynaqda yer alan statistik məlumatlara əsasən, onlardan 1.900.000 nəfəri müsəlmanlardan, 500.000 nəfəri ermənilərdən, 230.000 nəfəri ruslardan ibarət idi. Bu statistik göstəricilərə və “Azərbaycan Məclisi-Məbusanının Təsisi” haqqındakı qanunun tələblərinə əsasən, hər məbusun 24.000 nəfər əhalini təmsil etməli olduğu nəzərə alınaraq, ölkənin müsəlman əhalisinin 80, ermənilərin 21, rusların 10, almanların 1, yəhudilərin 1 məbusu Məclisi-Məbusana göndərmək hüquqlarının olduğu təsbit edilirdi. Qanunda öl-

kə ərazisində yaşayan, azlıqda olan "digər xırda millətlər"in isə sayca miqyas təşkil edəcək dərəcədə olmadıqları qeyd olunmuşdur. Bununla belə, gürcü və polyakların digər azlıq təşkil edən millətlərə nisbətən sayca üstünlük təşkil etmələri nəzərə alınaraq, istisna kimi onların (gürcü və polyakların) hər birinin məclisə bir nümayəndə göndərmələri mümkün hesab edilirdi [1, s.14; 5; 8, s.81]. Bu qaydaya müvafiq olaraq, azlıq təşkil edən xalqlar onları təmsil edəcək bütün nümayəndələri, müsəlman əhalisi isə onları təmsil edəcək 36 nəfəri seçərək Məclisi-Məbusana göndərməli idilər. Çünki artıq yuxarıda da qeyd etdiyimiz kimi, sözügedən qanunla müsəlman əhalini təmsil etməli olan 80 nəfər nümayəndədən 44 nəfəri, hansılar ki, əvvəllər Cənubi Qafqaz Seymində təmsil olunmuşdular, onlar Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusanına birbaşa mandat əldə etmiş hesab olunurdular. Milli Şuranın əsaslı üzvlərini təşkil edən və Məclisi-Məbusana birbaşa mandat əldə etmiş həmin 44 üzvdən birinin istefa verməsi, vəfat etməsi və yaxud da başqa səbəbdən dolayı məclisi tərk etməsi halında onun yerinə siyahısına daxil olduğu firqə tərəfindən başqa birisi təyin edilməli idi. Sözügedən qanuna əsasən, müsəlman əhalini təmsil etməli olan nümayəndələrin gizli səsvermə yolu ilə seçilmələrinə qərar verilirdi. Bu zaman Bakı şəhərindən seçiləcək 5 nəfər Bakı bələdiyyəsinin müsəlman üzvü, digər şəhərlərdən seçiləcək nümayəndələr, müsəlman milli komitələri, uyezdləri (qəzaları) təmsil edəcək şəxslər isə uyezd (qəza) milli komitələri tərəfindən seçiləcəkdilər. Bələdiyyə təşkilatı və milli komitələri olmayan qəzaları təmsil etməli olan nümayəndələrin hər icmadan bir nümayəndə göndərilmək yolu ilə formalaşdırılacaq icma nümayəndələrinin heyətləri sırasından təyin edilmələri mümkün hesab edilirdi. Qanunda fövqəladə hal vəziyyəti tətbiq edilən yerləri təmsil etməli olan nümayəndələrin Milli Şura tərəfindən təyin edilməsi nəzərdə tutulurdu. Seçki prosesinin təşkili və keçirilməsinə nəzarət şəhərlərdə bələdiyyə sədrlərinə, qəzalardamirovoylara və ya onların müavinlərinə, azlıq təşkil edən millətlərin isə milli şura sədrlərinə həvalə edilir və onlardan nümayəndə sifəti ilə təqdim etdikləri şəxslərə şəxsi imzaları ilə təsdiq edilmiş təqdimat və etimadnamələr vermələri istənilirdi [1, s.15; 8, s.82; 5].

Qanunda Məclisi-Məbusanda ölkənin müsəlman əhalisini təmsil edəcək 80 nümayəndədən 36 nəfərinin ölkənin paytaxtı Bakı şəhərindən, İrəvan və Tiflis vilayətlərinin Azərbaycan Xalq Cümhuriyyətinin ərazisinə aid hissələrindən və o cümlədən ölkənin ərazi-inzibati strukturuna daxil olan digər ərazi-inzibati vahidlərindən seçilməsi nəzərdə tutulurdu [1, s.15; 7, 8, s.82]. Bu bölgüyə müvafiq olaraq, Lənkəran qəzasından da2 nəfər (biri şəhərdən, digəriqəzadan olmaqla) nümayəndənin seçilərək, Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusanına göndərilməsi nəzərdə tutulurdu [ 1, s.15; 8, s.82; ].

**Lənkəran qəzası** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakı quberniyası tərkibində inzibati-ərazi vahidi idi. Bu qəzahələ çar I Nikolayın dövründə (1825-1855) həyatakeçirilmiş 1840 il 10 aprel qanunu ilə Talış əyalətinin əsasında yaradılmışdı. Lənkəran qəzası 1841-46 illərdə Kaspi vilayətinin tərkibinə daxil idi. 1846 il 14 dekabr tarixli fərmanla Şamaxı quberniyası təşkil edildikdə, onun tərkibinə qatılmışdı (1859 il Şamaxı zəlzələsindən sonra mərkəzi Bakıya köçürüldüyündən Bakı quberniyası adlandırılmışdı). Qəzanın mərkəzi Lənkəran şəhəri idi. Qəza Səbican, Lənkəran, Ərkivan məntəqələrindən və Muğan pristavlığından ibarət idi. Burada qəza idarəçi sistemi fəaliyyət göstərirdi. "Qafqaz təqvimi"nin (1917 məlumatma görə, qəzanın ərazisi 4726,88 *kv.verst* idi. Lənkəran qəzasında yaşayan 185518nəfər əhalinin 183583 nəfəri yerli sakinlər, 1935 nəfəri müvəqqəti yaşayanlar, 96904 nəfəri kişi, 88614 nəfəri qadın idi. Qəza əhalisinin 170 min nəfərə qədəri müsəlman idi. Çarizmin köçürmə siyasəti nəticəsində Lənkəran qəzasının əhalisinin tərkibində rusların sayı artmışdı. Həmin məlumata görə, qəzada 16206 nəfər rus qeydiyyata alınmışdı ki, onların 6974 nəfəri pravoslav, 9232 nəfəri sektant idi.

Fevral inqilabından (1917) sonra Lənkəranda sol yönlü Fəhlə-Əsgər Sovetləri yarandı. Eyni zamanda Çar Rusiyası dövrü bölgədə yerləşmiş sərhəd hərbi qüvvələri də xidmətlərinə davam edir və yeni, Müvəqqəti hökumətə tabe idilər. Oktyabr çevrilişindən (1917) sonra Bakıda hakimiyyəti ələ keçirmiş Bakı Soveti quberniyaya daxil olan qəzaların, o cümlədən Lənkəran qəzasının zor gücünəsovetləşdirilməsinə çalışırdı. Bu zamanbolşevikhakimiyyətini tanımayan rus qoşunları isə bölgədə qalmaqda davam edir vəmüqavimət göstərirdilər. 1918-ci il aprelin 12-də Bakı Soveti Lənkərana 280 nəfərlik silahlı dəstə göndərdi və aprelin 14-də qəzada sovet hakimiyyətinin qurulması elan olundu.Lakin 1918 il avqustun 4-də Lənkəran qəzasında sovet hakimiyyəti süqut etdi. Denikinə tabe olan və bolşevikləri qəbul etməyən hərbiqüvvələr sağ eserlərlə birlikdə "Muğan Müvəqqəti hərbi diktaturası" və ya "Beşlər diktaturası" yaratdı. "Muğan hökuməti" antiazərbaycan siyasəti yeridir, denikinçilərin Cənubi Qafqazda ağalığını təmin etməyə çalışırdı. Bolşeviklər də Lənkəranda hakimiyyəti ələ keçirməyə cidd-cəhd göstərirdilər. Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz Diyar Komitəsi Lənkəranda gizli radiostansiya təşkil etmişdi, sovet hakimiyyəti tərəfdarlarına hərbi və maddi kömək göstərirdi. "Muğan hökuməti" 1919 il aprelin 25-də yıxıldı, *Muğan Sovet Respublikası* (1919 il 25 aprel - 27 iyul) quruldu. Yeni yaranan Muğan Sovet Respublikası Azərbaycan Xalq Cümhuriyyətini tanımaqdan imtina etdi. Bəzi sosialist tədbirlərinə baxmayaraq, Muğan Sovet Respublikası xalq arasında nüfuz qazana bilmədi və iyulun 27-də süquta uğradı. Lənkəran qəzasında hakimiyyət yenidən Muğandakı rus qüvvələrinin əlinə keçdi. Dövlət quruculuğuna məqsədyönlü şəkildə həyata keçirən AXC hökuməti ölkənin ərazi bütövlüyünün bərpasına xüsusi önəm verərək Lənkəran qəzasında öz hakimiyyətinin qərarlaşması uğrunda fəal mübarizəyə başladı. Bu məqsədlə təşkil olunan xüsusi hərbi dəstə tərəfindən Lənkəran əməliyyatı uğurla başa çatdırıldı. 1919-cuil avqustun sonunda Lənkəran dəstəsi qarşıya qoyulan vəzifəni tamyerinə yetirdi və Lənkəran qəzasında Azərbaycan Xalq Cümhuriyyətinin suveren hüquqları bərpa edildi.

Lakin Lənkəran qəzasında mürəkkəb siyasi vəziyyətə və AXC-nın bu qəzada tam hakimiyyətinin yalnız 1919-cu ilin ortalarında təmin etməsinə baxmayaraq qəzanın siyasi qüvvələri Azərbaycanda milli mübarizə və dövlət quruculuğu prosesindəfəal iştirak edirdilər.

Qəzanın fəalları müxtəlif Azərbaycan partiyalarında təmsil olunurdular. Təbiidir ki, Azərbaycan Parlamentinin yaradılması ərəfəsində bu cənub bölgəsinin nümayəndələri də nəzərə alınırdı.

Azərbaycan Milli Şurasının 1918-ci il 20 noyabr tarixli iclasında qəbul olunmuş "Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun" adlı seçki qanununa əsasən Zaqafqaziya Seyminin müsəlman fraksiyasını təmsil edən 44 üzvü Parlamentə seçkisiz, birbaşa parlament üzvlüyünə daxil edilirdi. Lənkəran qəzasından AXC Parlamentinə nümayəndə Müsavat və bitərəflər fraksiyasını üzvü kimi Seymdə fəaliyyət göstərmiş Hacı Mirzə Səlim Axundzadə daxil edilmişdi. [1, s.14; 4, s.10, s.36-38]

Hacı Səlim Mirzə İsmayıl Qasir oğlu Axundzadə 1872-ci ildəLənkəranda tanınmış maarifçi-Mirzə İsmayıl Qasirin ailəsində doğulmuşdu. XIX-XX əsrlərin qovuşuğundakı Lənkəran mədəni və ictimai mühitini onsuz təsəvvür etmək mümkünsüzdür. Qasir – böyük Seyid Əzim Şirvaninin qələm və əqidə yoldaşı, dövrünün qabaqcıl ziyalısı, şair və maarif xadimi idi: Lənkəran ədəbi məclisini – «Fövcül-füsəhanı» o yaratmış, ilk müasir tipli, «Üsuli-cədid» məktəbini oaçmışdı. Səlim dəilk təhsilini atasının Lənkəranda açdığı "Üsuli-cədid" məktəbində almış, daha sonra Lənkəran şəhər gimnaziyasını bitirmişdi. [2, s.122] Beləliklə o, həm Şərq, həm Avropa sistemli təhsil almışdı. Bir müddət yerli məhkəmə və polisidarələrində, habelə mülkədar Əsgər xan Talışinskinin evində katib işlədikdən sonra Səlim ruhani təhsilini davam etdirmək üçün Lənkəran mədrəsəsində ərəbcəsini təkmilləşdirib İrana gedir; 8 il ərzində Ərdəbil və Zəncan mədrəsələrində dini biliklərini artırır, İraqın Nəcəf şəhərində böyük üləmalardan dərs alır, müqəddəs Kəbəni ziyarətedir.

Bununla belə, onun maraq dairəsi İslam Şərqinin zəngin dini və elmi-mədəni irsi ilə məhdudlaşmır. Səlim Axundzadə Avropa dəyərlərinə bələd olmaqdan ötrü Türkiyəyə səfər etmiş, orada fransızcanı öyrənmiş, sonra bir çox Qərb ölkələrini gəzmişdi. Təhsilində və dünyagörüşündəki bu ikilik onu ömrüboyu müşayiət edəcək, onun fəaliyyətində özünü büruzə verəcəkdi. Hacı Mirzə Səlim bir tərəfdən axund, yəni mühafizəkar azərbaycanlı, imanında möhkəm din xadimi və təpədən-dırnağa milli bir adam olaraq qalacaq, digər tərəfdən, qabaqcıl Avropa elmi-mədəni və ictimai-siyasi fikrinin nailiyyətlərini təqdir və təbliğ edəcəkdi [7].

Yaxın Şərqə və Avropaya ilk səfəri Axundzadəyə böyük təsir göstərdi: oxuyub-öyrəndikləri və müşahidə etdikləri onu müsəlmanların, o cümlədən Azərbaycan xalqının hazırkı durumu barədə düşünməyə sövq edirdi. Lənkəran məscidlərindən birinin axundu olaraq çalışan Mirzə Səlim öz moizələrində mövhumat və cəhaləti ən böyük ictimai bəla kimi tənqid edərək, azad fikirli çıxışları ilə xalqın rəğbət və etimadını qazanmışdı. Onun xalq kütlələri, ziyalılar və gənclər arasında artan nüfuzu çar hökumətinin yerli nümayəndələrini təşvişə salırdı. Və Lənkəranın əksər mollaları cavan axunda münasibətdə rus şovinisti və xristian təəssübkeşi olan çar məmurları və kilsə xadimləriilə eyni cəbhədən çıxış edirdilər: həmkarları Hacı Mirzə Səlimin xalqı qəflətdən oyadıb hər sahədə tərəqqiyə səsləyən moizələrinə qısqanclıqla yanaşırdılar. Bütün bu təzyiqlər Axundzadəni məsciddən uzaqlaşmağa vadar etdi: 1911-ci ildə onu şəhər gimnaziyasına şəriət və rus-fransız dilləri müəllimi götürdülər [7; 6, s.8]. Belə ki, Hacı Mirzə Səlim 1911-ci ildən 1916-cı ilədək burada həm islam dini və şəriəti, həm də fransız dilini tədris edir. Bu səbəbdən onunla ədavət edənlər ona böhtanlar yağdırır, onu da vaxtilə atası Mirzə İsmayıl Qasiri etdikləri kimi babilikdə ittiham edir, hökumət idarələrinə şikayətlər göndərirlər. Bunların nəticəsində Hacı Səlimə dövlət tərəfindən təzyiqlər başlanır, evində axtarış aparılır, bütün yazı və sənədləri həbs olunaraq təftiş edilir [6, s.8]

Axundzadə mahiyyətcə narahat, fəal adam idi, daha çox öyrənməyə can atırdı və deyəsən, «çox oxuyan çox bilməz – çox gözən çox bilər» qənaətinə inandığından idi ki, 1916-cı ildəyenidən Yaxın Şərq ölkələrinə səyahətə çıxdı. Bəlkə də, bu səfər Lənkəranın birləşmiş qaragüruh qüvvələrinin təqiblərindən müvəqqəti də olsa uzaqlaşmaq üçün düşünülmüşdü, ola bilər, başqa – bizə məlum olmayan səbəblər vardı. Hər halda Hacı Mirzə Səlim yola çıxmaq üçün çox namünasib vaxt seçmişdi: 1-ci Dünya müharibəsinin ən qızğın çağı idi vərus-türk cəbhə xətti lap yaxınlıqdan keçirdi. Daha səkkiz il Ərdəbildə, Zəncanda, Nəcəfdə təhsilini davam etdirmiş, ilahiyyat elmlərinə yiyələnmişdir. Lənkərana qayıtdıqdan sonra,şəhər polis idarəsində, sonralar isə mülkədar Əsgər xan Talışinskinin yanında katib işləmiş,bir müddət mollalıq etmişdir. 1911-ci ildən şəhər gimnaziyasında şəriətdən və fransız dilindən dərs demişdir. 1916-cı ilin əvvəllərində Türkiyəyə getmişdir [7; 6, s.10].

Axundzadə Yaxın Şərqi – İranı, İraqı, Türkiyəni gəzib qayıdanda Vətəndəki abu-hava,ictimai-siyasi vəziyyət tamam dəyişmişdi: o, çar Rusiyasından imperiya təbəəsi kimi səfərə çıxmışdısa, səyahətini başa vurub müvəqqəti hökumətin Rusiyasına respublika vətəndaşı kimi dönmüşdü. Əslində Vətəndə nə hakimiyyətdən, nə üsul-idarədən əsər-əlamət vardı, xaos vədərəbəylik hökm sürürdü. Yerlərdə düz-əməlli sabitlik yaratmaq, ictimai asayişi bərpa etmək bölgələrdəki elitanın – zadəganların, ziyalıların, ruhanilərin, el ağsaqqalarının üzərinə düşürdü. 1917-ci ildə, fevral inqilabından az sonra Lənkərana qayıdan Hacı Mirzə Səlim tərəddüd etmədən – çiynini bu məsuliyyətin altına verənlərin sırasına qoşuldu [7; 6, s.10]

1917-ci ilin sonlarında onu yeni yaradılan, bölgədə yeganə hakimiyyət orqanı olan Lənkəran qəza komissarlıq nümayəndəliyinin və İctimai Təşkilatların İcraiyyə Komitəsinin tərkibinə daxil etdilər. Həmçinin humanitar və maarifçi fəaliyyət göstərməyi qarşısınaməqsəd qoyan «Ümid» Xeyriyyə Cəmiyyətinin üzvləri arasında keçirilən gizli səsvermənəticəsində Hacı Mirzə Səlim cəmiyyətin sədri seçildi [6, s.19-20].

O,1917-ci ilin yayında Axundzadə "Türk Ədəmi-Mərkəziyyət "Müsavat" partiyasına daxil olmuşdur. Səlim Axundzadə «Müsavat» partiyasının sədri Məhəmməd Əmin Rəsulzadə ilə Lənkəranda tanış olmuşdu. Rəsulzadə bölgəyə mühüm hadisələr ərəfəsində lənkəranlıların ictimai-siyasi təşkilatlanmasına yardım etmək məqsədi ilə gəlmişdi. Onlar yenidən Bakıda, Müsəlman Milli Şurasının iclasında görüşmüşdülər. Hacı Mirzə Səlim burada digərmüsavatçılarla da ünsiyyət qurmuş və sonda öz seçimini etmişdi: məramnaməsindəki ideya vəprinsipləri tanış və doğma bildiyi üçün bu firqəyə - «Müsavat»-a üzv olmuş, partiyanın Lənkəran özəyini yaratmış, onun birinci və ikinci qurultaylarının iştirak etmişdır. [7; 6, s.9]. O, Zaqafqaziya komissarlığında fəaliyyət göstərmişdir.

1918-ci il fevralın 8-də Bakıdan Lənkərana gələn teleqramda «Müsavat» partiyasının yerli təşkilatına sanballı bir nümayəndəsini mərkəzə göndərmək tapşırılırdı. O, artıq sabah səhər tezdən Bakıda olmalı idi ki, axşam – yeni yaradılan Zaqafqaziya Seyminin üzvlərindən biri kimi – Tiflisə yola düşsün. Firqədaşları bu tarixi missiyaya Hacı Mirzə Səlim axund Axundzadəni layiq bildilər. Beləliklə, Axundzadə Zaqafqaziya seyminin Müsəlman fraksiyasının üzvü olur. Seymin işində fəal iştirak edən Mirzə Səlim Axundzadə 1918-ci ilin mayında Azərbaycan Milli Şurasının üzvü seçilir. 1918-ci il Mayın 28-də Azərbaycanın İstiqlal bəyannaməsini imzalayanlardan biri olmaqla Hacı Mirzə Səlim Axundzadə öz adını bu şərəfli tarixi hadisədə həkk etdirişdir.

1918-ci ildə daşnak cəlladı Andronik Zəngəzurda azərbaycanlı əhalini amansızcasına qətlə yetirdikdə, Axundzadə mahalın erməni quldurlarından təmizlənməsində önəmli fəaliyyət göstərmişdir. 1918-ci ildə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin bölgələrində qırğınlar törədən ermənilərin qarşısını almaq üçün Nuru Paşanın başçılığı altında göndərilmiş Türkordusu Gəncəyə gəlir. Buradan 4 min əsgər ölkənin Qərb bölgələrində qırğınların qarşısını almaqdan ötrü Hacı Səlimin müşahidəsi ilə Zəngəzur tərəfə hərəkət edir. Hərəkət zamanı Zəngəzur bölgəsinə çatmağa yaxın yorğun əsgərlərin dincəlməkdən ötrü dayandığı zamanxəbər gəlir ki, müsəlmanlar mühasirədədir, nə çəkilməyə yol, nə də müdafiəyə qüvvə qalmayıb, təcili kömək gəlməsə qırılacaqlar. Bu zaman Hacı Səlim səhəri gözləmək niyyətində olan yorğun əsgərlərin qarşısına çıxaraq, "müsəlman qardaş və bacılarımız orda qırılarkən bizim burda dincəlməyimiz…" alovlu nitq söyləyir. Nəticədə bir dəstə əsgər ayağa qalxıb, "…buracan nədən ötrü gəlmişik, indi az qala gözümüzün qarşısında müsəlman qardaşlarımız qətlə yetirilsin?" deyərək, "biz gedək, qalanlar dincəlib gələrlər"- deyə yolaçıxırlar. Bir azkeçdikdən sonra qalan əsgərlər də ayağa qalxırlar [6, s.10].

1918-ci ilin dekabrında Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti yaradılanda Axundzadə Lənkəran bölgəsinin təmsilçisi kimi Parlamentin tərkibinə daxil edilir.

Hacı Mirzə Səlim, Azərbaycan Parlamentinin üzvü qismində fəaliyyətinə toxunarkən qeyd edilməlidir ki, parlament iclasının stenoqramında və «Azərbaycan» qəzetinin parlament hesabatlarında Hacı Mirzə Səlim axundun cəmi iki çıxışı yer almışdır. Çıxışların hər ikisi Lənkəran hadisələrinə həsr olunub: o zaman rus ordusununqalıqları və yerli rus-malokan icması cənubda Muğan Müvəqqəti Hərbi Diktaturası yaratmışdılar, mərkəzi hakimiyyəti, Azərbaycan Xalq Cümhuriyyətinitanımırdılar; əliyalınyerli müsəlman əhalisi bir sürü silahlı avantüristdən olmazın əziyyətlər görürdü [7; 4, s.225].

"Azərbaycan" qəzetinin 1919-cu il 12 yanvar 85 saylı parlament stenoqraflarına əsasən, parlamentin 08 yanvar 1919-cu il 7 saylı iclasında Hacı Mirzə Səlim Axundzadə həyəcan təbiliçaldı: «Lənkəran şəhərində xərabə və paymal olmuyan bir ev mövcud deyil. Lənkəranın vəziyyətini mülahizə edən insanın ürəgi ya gərək erməni ürəgi və ya xaxol ürəgi, yəinki gərək daş ürək olsun. Şəhərin özündə bilmərrə xərabə olub əsər qalmayan ev yoxdur… Lənkəran, deməli, ikinci Şirvandır… Xaxollar əvvəl özlərini Muğan respublikası adlandırıb, sonra bilmirəm, hansı tək səbir gəlibsə, Mu-

ğan respublikasını məsləhət görməyib, özlərini Rusiya hissəsi sayıb Ufa hökumətinə tabe edirlər. Xaxollar aşkar deyirlər ki, biz Azərbaycan hökumətini bilmək istəmirik və ingilisi də tanımıyoruz» [1, s.71; 4, s.239-240].

1919-cu il martın 10-da, parlamentin 21-ci iclasında Hacı Mirzə Səlim bu məsələyə yenidən qayıtdı: «Əl-an 10 məktub almışam ki, Lənkəranda edilən zülmə dəxi əhalinin davamı yoxdur. Üstü örtülü ərz edirəm: bu saat Lənkəranda evlərə girib, hər şey edirlər. İrz-namus əl-ayaq altında gedir… Lənkərana buradan 12 saatlıq yoldur. Əgər istəyirsiniz hər firqədən bir nümayəndə olaraq bir komissiya göndərəsiniz, gedib bu işlərdən yerində tədqiq eləsin. Həqiqətdə irz-namus gedir» [1, s.160].

Hacı Mirzə Səlim axundun parlamentdəki nitqləri öz emosionallığı ilə fərqlənir; bu sətirlərin arxasından qeyrətli bir insanın, vətənpərvər bir azərbaycanlının, təəssübkeş birlən kəranlının yanar ürəyi döyünür. 1919-cu ilin avqustunda, AXC qoşunları qəzadakı bir-biriniəvəzləyən rus və bolşevik diktaturalarının varlığına son qoydu, Lənkəran azad edildi və dövlət hakimiyyətini bu bölgədə də bərqərar oldu. Lənkəran əhalisi və onun qeyrətli təmsilçisi olan Səlim Axundzadə rahat nəfəs aldı [3, s.168; 7].

Hacı Səlim Axundzadə Azərbaycan Parlamentində Müsavat və Bitərəf fraksiyasının üzvü kimi həmin dövrdə Azərbaycanın müxtəlif bölgələrində cərəyan edən ictimai-siyasivə mədəni-maarif istiqamətlərində görülən təşkilati işlərdə fəal iştirak etmişdir. [6, s.9]

Azərbaycan Xalq Cümhuriyyəti Sovet Rusiyası tərəfindən istila nəticəsində süqut etdikdən sonra burada fəal cümhuriyyətçilərə qarşı qırmızı terror başlananda Hacı Mirzə Səlim də mühacirət etməyə məcbur oldu. O, yenə də Vətənini azad etmək yollarını axtarır və bunun da yolunu islam aləminin birliyində görür. 1924-cü ildə İranın Ənzəli şəhərinə köçür və böyük hörmətlə qarşılanır. Burada o, Axundzadə-Mühacir soyadı ilə tanınır və müqavilə əsasında şəhərin dövlət mədrəsəsində müəllimlik edərək, islam dini, şəriət, ərəb və fransız dillərini tədris edir. Axundzadə həmçinin vətəni tərk edərək İranın bu bölgəsində məskunlaşmış müsavatçılara rəhbərlik edir, şimalda olan məsləkdaşları ilə əlaqə yaradaraq mübarizə yollarını axtarır, [2, s.122]. O, həmçinin Türkiyəyə mühacirət etmiş mübarizə silahdaşları ilə daim əlaqə saxlayır [9, s.11]".

1930-cu ildə, vəfatından az öncə xatirələrini yazmağa başlayan Hacı Səlim Axundzadəsonrakı nəsillərə qiymətli bir həyat şəhadəti, vacib bir sənəd miras qoydu. Axundun «Xatirat»ındakı ən dəyərli məqam onun Azərbaycan istiqlalı naminə gördüyü işlərin düzgünlüyünə dərin inamı və xalqının mütləq yenidən öz dövlət müstəqilliyinə qovuşacağına əminliyi idi [7].

## ƏDƏBİYYAT


1. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament (Stenoqrafik hesabatlar). I cild. Bakı, "Azərbaycan" nəşriyyatı, 1998, 427 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild, Bakı, "Lider" nəşriyyatı, 2004, 471 s.
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı, "Lider" nəşriyyatı, 2005, 479 s.
4. "Azərbaycan" qəzetində parlament hesabatları və şərhləri (araşdırıb toplayanı, ərəb əlifbasından latın əlifbasına çevirəni, ön sözün müəllifi, lüğətin tərtibçisi Şirməmməd Hüseynov). I cild. Bakı: Qanun, 2016, 655 s.
5. Baxışov Vüsal Bünyamin oğlu. Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusanında Nuxa qəzasını təmsil etmiş Şəxslər/ Ədalət. - 2018.- 7 iyun. - № 101. - S. 7.

6. Hacı Mirzə Səlim Axundzadə. Azərbaycan torpağına türbət demişəm. Xatırat (tərtib edən və çapa hazırlayan Tufan İshaq oğlu Axundov). Bakı, 2016, 288 s.

7. Seymur Şahbazov, On ikinci imza- Hacı Mirzə Səlim Axundzadə. reyting.az/araşdırma/8676-on-ikinci-imza-haci-mirze-selim-axundzade.html (giriş tarixi 12.01.19)

8. SolmazRüstəmova-Tohidi. Azərbaycan Parlamenti necə yarandı. Bax: Müstəqilliyin çətin yolu. Məqalələr toplusu. Bakı, 2019. 376 səh.

9. Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurasi iclaslarının protokolları. 1918-ci il, Bakı, "Adiloğlu" nəşriyyatı, 2006, 216 səh.

***Резюме***

***Нурлана Меликли***

***Деятельность Гаджи Мирзы Селим Ахундзаде , представляющего Ленкоранский уезд, в Парламенте Азербайджанской Демократической Республики***

***Ключевые слова***: *Гаджи Мирза Селим Ахундзаде, Азербайджанская Демократическая Республика Парламент, Ленкоранский уезд*

Видные представители Азербайджанской интеллигенции – создатели АДР сыграли значительную роль в просвещении народных масс, формировании и развитии демократического общества, укреплении социально-политических основ независимой государственности. Одним из таких деятелей являлся член мусульманской фракции Закавказского Сейма, подписавший Декларацию о Независимости, позже представитель Ленкоранского уезда в Парламенте АДР Гаджи Мирза Селим Ахундзаде. В статье дается краткий обзор жизни и общественной и политической деятельности Г.М.С.Ахундзаде, рассматриваются его речи в парламентских заседаниях, говорится о дальнейшей судьбе после свержения АДР.

***Summary***

***Nurlana Melikli***

***Haji Mirza Salim Akhundzadeh's activity as the representative of Lankaran in the Parliament of Azerbaijan Democratic Republic (ADR)***

***Key words:*** *Azerbaijan Democratic Republic, parliament, Lankaran, Haji Mirza Salim Akhundzadeh*

The founders of the Azerbaijan Democratic Republic – the leading intellectuals and educators of the Azerbaijani people – have made significant efforts to ensure the overall progress of the nation, the formation of a democratic society and strengthening of the socio-political basis of the independent state. One of the actual activist in this direction is Haji Mirza Salim Akhundzadeh – one of the members of the Muslim faction of the Transcaucasian Seym, one of the signatories to the Declaration of Independence of Azerbaijan Democratic Republic, the representative of the Lankaran in ADR Parliament. The article investigates Haji Mirza Salim Akhundzadeh's life, and his activity before and in the parliament of the ADR.